**Sara.** Xaqani Şirvaniyə həsr olunmuş elmi seminar keçirilib // 525-ci qəzet. -2009.- 15 dekabr. - S.7.

M.F.Axundov adına Milli Kitabxanada "Bakı – İslam mədəniyyətinin paytaxtı – 2009" tədbirlər planı çərçivəsində İSESKO-nun Regional Mərkəzi, Mədəniyyət və Turizm Nazirliyi və AMEA-nın birgə təşkilatçılığı ilə XII əsr görkəmli Azərbaycan şairi Əfzələddin Xaqani Şirvaninin yaradıcılığına həsr olunmuş elmi seminar təşkil edilib. Mədəniyyət və Turizm Nazirliyindən verilən məlumata görə, AMEA Ədəbiyyat İnstitutunun direktoru, akademik Bəkir Nəbiyevin sədrliyi ilə keçirilən tədbiri giriş sözü ilə mədəniyyət və turizm nazirinin müavini Ədalət Vəliyev çıxış edərək həyata keçirilən tədbirin əhəmiyyətindən danışıb.

Seminarda akademik Bəkir Nəbiyev Əfzələddin Xaqaniyə həsr olunmuş "Poetik istedadla həyat həqiqətinin nadir vəhdəti" mövzusunda məruzə ilə çıxış edib: "Xaqani Şirvani klassik Şərq poeziyasının bütün janrlarında yüksək sənətkarlıq nümunələri yaradıb. Onun zəngin ədəbi irsi 17 min beytlik lirik şeirlər divanı, "Töhfətül-İraqeyn" poeması, bədii nəsrin maraqlı nümunələri olan 60 məktub, divanındakı şeirlər, qəsidə, qəzəl, mədhiyyə, mərsiyə, rübaidən ibarətdir".

Tədbirdə akademik Vasim Məmmədəliyev, AMEA-nın müxbir üzvləri Teymur Kərimli və Rafael Hüseynov, filologiya elmləri doktorları Tərlan Quliyev, İmamverdi Həmidov, Nüşabə Araslı, Şəfəq Əlibəyli və başqaları məruzələrlə çıxış ediblər.